PSİXOLOGİYA ELMİ-TƏDQİQAT İNSTİTUTU

# "İllinois Bullinq şkalası"nın Azərbaycan dilinə adaptasiyası: Bullinq, psixoloji sıxıntı və rifah arasındakı əlaqənin araşdırılması

Elmi-tədqiqat işi

Müəlliflər: f.ü.f.d. Elnur Rüstəmov, Mətanət Əliyeva, Ülviyyə Nəhmətova, Narınc Rüstəmova

Bakı: 2024

“İllinois Bullinq Şkalası”nın Azərbaycan dilinə adaptasiyası: Bullinq, psixoloji sıxıntı və rifah arasındakı əlaqənin araşdırılması mövzusunda elmi-tədqiqat işinin

REFERATI

Elmi-tədqiqat işinin obyekti “İllinois Bullinq Şkalası”dır.

Tədqiqatın məqsədi “İllinois Bullinq Şkalası”nın Azərbaycan dilində psixometrik meyarlarının yoxlanılması və dilimizə adaptasiyasını həyata keçirməkdən ibarətdir.

Tədqiqatın qarşıya qoyulmuş məqsədindən irəli gələn vəzifə:

a) Bullinqin mahiyyətini açmaq;

b) “İllinois Bullinq Şkalası”nın linqvistik ekvivalentliyinin yoxlanılması;

c) Hədəf kütlənin müəyyən olunması və tədqiqatın keçirilməsi;

d) Təsdiqləyici faktor analizin aparılması və strukturun yoxlanılması;

e) Tədqiqatın etibarlılığının yoxlanılması;

f) “İllinois Bullinq Şkalası” ilə “Varvik-Edinburq mental rifah şkalası”, “Uşaq və yeniyetmələrin psixoloji sıxıntı şkalası”, “Psixoloji sağlamlıq şkalası” arasındakı korrelyasiyanın yoxlanılması

Tədqiqatın konkret məqsəd və vəzifəsindən çıxış edərək çoxlu sayda və müxtəlif adda elmi – psixoloji ədəbiyyat təhlil edilmişdir.

Tədqiqatda aşağıdakı nəticələr çıxarılmışdır:

- “İllinois Bullinq şkalası”nın Azərbaycan dilinə uyğunlaşdırılmış variantının təsdiqedici faktor analizinin psixometrik nəticələri orijinal versiyanın strukturunu təsdiqləmişdir.
- Təhlil göstərdi ki, 18 maddədən ibarət (birölçülü) şkala fərdlərə öz rifah, psixoloji sıxıntı, zorakılığa məruz qalma, qurban roluna keçmə səviyyələrini qiymətləndirməyə imkan verir. Nəticələr göstərir ki, şkala daxili tutarlılıq və etibarlılıq baxımından qənaətbəxş psixometrik xüsusiyyətlərə malikdir.
- İllinois Bullinq şkalasının etibarlılıq səviyyəsi qənaətbəxş hesab edilib. Bu şkala üçün Kronbax alfa, McDonald omeqa və Gutman Lambda etibarlılıq əmsalları validlik üçün müəyyən edilmiş qaydalara uyğun gələn məqbul daxili uyğunluğu göstərib.
- Konvergent etibarlılıq təhlilləri İllinois Bullinq şkalası ilə “Uşaq və yeniyetmələrin psixoloji sıxıntı şkalası” arasında müsbət korrelyasiya aşkar edib. Bu da zorakılığa daha çox məruz qaldıqca psixoloji sıxıntının artdğını göstərib. Şkala həmçinin “Varvick-Edinburq mental rifah şkalası” ilə mənfi korrelyasiyanı müşahidə edib. Bu müşahidəyə görə zorakılıq yüksək səviyyədə olarsa, rifah aşağı

səviyyədə olar nəticəsinə gəlinib. Zorakılığın 3 alt ölçüsü (bullinq edən, qurban və dalaşmaq) və stress arasındakı əlaqə araşdırılıb.

- Araşdırma İllinois Bullinq şkalasının proqnozlaşdırıcılığını təsdiqləyib. Nəticələrə əsasən, zorakılıq yüksəldikcə narahatlıq, stress və depressiya üçün risq faktoru artıb. Mövcud ədəbiyyatlar zorakılıq və mənfi psixoloji nəticələr arasında birbaşa əlaqəni göstərən bu assosasiyaları dəstəkləyib.
- Ümumilikdə tədqiqat Azərbaycan kontekstində uyğunlaşdırılmış"İllinois Bullinq şkalası"nın psixometrik xüsusiyyətlərinə və etibarlılığına dair dəyərli fikirlər vəd edib. Nəticələr şkalanın tətbiq edilə biləcəyini, etibarlılığını, validliyini təsdiqləyərək bullinqin azərbaycanlı uşaq və yeniyetmələrin psixi sağlamlığına və rifahına mənfi təsirini vurğulayıb.

## MÜNDƏRİCAT

GİRİŞ………………………………………………………………………….....5

I Fəsil. Bullinq anlayışı və "İllinois Bullinq şkalası"

1.1. Bullinq anlayışı və onun mahiyyəti……………………………………………...7

1.2. Bullinqin sıx əlaqədə olduğu psixoloji fenomenlər……………………………..10

II Fəsil. "İllinois Bullinq şkalası"nın Azərbaycan dilinə adaptasiyası……..……..13

2.1.Tədqiqatın metodikası.........................................................................................13

2.2. Tədqiqat nəticələrinin təhlili………………………………………………17

NƏTİCƏ...................................................................................................................21

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT .....................................................................22

# GİRİŞ

İnsanların bir-birinə qarşı aqressiv davranışları izah edən bullinq ingiliscədən kiməsə zərər yetirməyə meyilli olma, kimisə qorxutma, nəyəsə məcbur etmə kimi mənalara gəlir. Xüsusən də, əgər bu davranışlar digərlərinə nəzərən gücsüz, ictimai imtiyazları az olan, asanlıqla alçaltmaq, əzmək mümkün olan və özünü müdafiə edəcək mövqedə olmayan fərdlərə qarşı təkrarən törədilirsə bunlar bullinq halları kimi xarakterizə edilir.

Dünya üzrə statistikaya nəzər salsaq 12-18 yaş arası uşaqlar arasında aparılmış sorğular nəticəsində onların 20%-nin bullinqlə üzləşdiyi məlum olmuşdur, 30% uşaq isə bu və digər formada bullinq törətdiyini etiraf etmişdir. Bullinqin baş verdiyi an 85% hallarda ətrafda olan digər uşaqlar da buna şahid olurlar [6]. Bullinq təkcə məktəbdə şagirdlər arasında yaşanmır, eləcə də universitet tələbələri arasında, iş yerlərində də bullinq halları müşahidə oluna bilər Bulinq mövzusunun psixoloji ədəbiyyatda təhlili göstərir ki, bulinq aqressiyanın təzahürü kimi meydana gəlir və ilk dönəmlər aqressiv davranışın bir forması kimi öyrənilmişdir.

Bu sadalanan məqamlar göstərir ki, müasir dövrün aktual problemlərindən olan bullinq problemini aradan qaldırmaq üçün bir sıra korreksiya edici və qabaqlayıcı profilaktik tədbirlər görmək lazımdır. Lakin bu istiqamətdə tədbirlər görmək üçün ilkin növbədə xüsusi ölçmə metodları vasitəsilə problemlər aşkar olunmalıdır tədqiq olunmalıdır. Azərbaycanda bu məsələnin tədqiq olunması üçün validliyə və mötəbərliliyə malik olan hər hansısa bir şkalanın (test) olmaması məhz bu tədqiqatın aparılması və "İllinois Bullinq Şkalası"nın Azərbaycan dilinə adaptasiya olunması zərurətini ortaya qoydu.

Elmi-tədqiqat işinin obyekti "İllinois Bullinq Şkalası"dır.

Tədqiqatın məqsədi "İllinois Bullinq Şkalası"nın Azərbaycan dilində psixometrik meyarlarının yoxlanılması və dilimizə adaptasiyasını həyata keçirməkdən ibarətdir.

Tədqiqatın qarşıya qoyulmuş məqsədindən irəli gələn vəzifə:

a) Bullinqin mahiyyətini açmaq;

b) "İllinois Bullinq Şkalası"nın linqvistik ekvivalentliyinin yoxlanılması;

c) Hədəf kütlənin müəyyən olunması və tədqiqatın keçirilməsi;

d) Təsdiqləyici faktor analizin aparılması və strukturun yoxlanılması;

e) Tədqiqatın etibarlılığının yoxlanılması;

f) "İllinois Bullinq Şkalası" ilə "Varvik-Edinburq mental rifah şkalası", "Uşaq və yeniyetmələrin psixoloji sıxıntı şkalası", "Psixoloji sağlamlıq şkalası" arasındakı korrelyasiyanın yoxlanılması.

Tədqiqatın konkret məqsəd və vəzifəsindən çıxış edərək çoxlu sayda və müxtəlif adda elmi – psixoloji ədəbiyyat təhlil edilmişdir.

Tədqiqatda aşağıdakı nəticələr çıxarılmışdır:

- “İllinois Bullinq şkalası”nın Azərbaycan dilinə uyğunlaşdırılmış variantının təsdiqedici faktor analizinin psixometrik nəticələri orijinal versiyanın strukturunu təsdiqləmişdir.
- Təhlil göstərdi ki, 18 maddədən ibarət (birölçülü) şkala fərdlərə öz rifah, psixoloji sıxıntı, zorakılığa məruz qalma, qurban roluna keçmə səviyyələrini qiymətləndirməyə imkan verir. Nəticələr göstərir ki, şkala daxili tutarlılıq və etibarlılıq baxımından qənaətbəxş psixometrik xüsusiyyətlərə malikdir.
- İllinois Bullinq şkalasının etibarlılıq səviyyəsi qənaətbəxş hesab edilib. Bu şkala üçün Kronbax alfa, McDonald omeqa və Gutman Lambda etibarlılıq əmsalları validlik üçün müəyyən edilmiş qaydalara uyğun gələn məqbul daxili uyğunluğu göstərib.
- Konvergent etibarlılıq təhlilləri İllinois Bullinq şkalası ilə “Uşaq və yeniyetmələrin psixoloji sıxıntı şkalası” arasında müsbət korrelyasiya aşkar edib. Bu da zorakılığa daha çox məruz qaldıqca psixoloji sıxıntının artdğını göstərib. Şkala həmçinin “Varvick-Edinburq mental rifah şkalası” ilə mənfi korrelyasiyanı müşahidə edib. Bu müşahidəyə gpörə zorakılıq yüksək səviyyədə olarsa, rifah aşağı səviyyədə olar nəticəsinə gəlinib. Zorakılığın 3 alt ölçüsü (bullinq edən, qurban və dalaşmaq) və stress arasındakı əlaqə araşdırılıb.
- Araşdırma İllinois Bullinq şkalasının proqnozlaşdırıcılığını təsdiqləyib. Nəticələrə əsasən, zorakılıq yüksəldikcə narahatlıq, stress və depressiya üçün risq faktoru artıb. Mövcud ədəbiyyatlar zorakılıq və mənfi psixoloji nəticələr arasında birbaşa əlaqəni göstərən bu assosasiyaları dəstəkləyib.
- Ümumilikdə tədqiqat Azərbaycan kontekstində uyğunlaşdırılmış“İllinois Bullinq şkalası”nın psixometrik xüsusiyyətlərinə və etibarlılığına dair dəyərli fikirlər vəd edib. Nəticələr şkalanın tətbiq edilə biləcəyini, etibarlılığını, validliyini təsdiqləyərək bullinqin azərbaycanlı uşaq və yeniyetmələrin psixi sağlamlığına və rifahına mənfi təsirini vurğulayıb.

Elmi-tədqiqat işi giriş, 2 fəsil, 4 altfəsil, nəticə və istifadə edilmiş ədəbiyyatdan ibarətdir.

# I Fəsil. Bullinq anlayışı və “İllinois Bullinq şkalası”

## 1.1. Bullinq anlayışı və onun mahiyyəti

Bulinq əsasən ibtidai siniflərdən başlayaraq məktəbyaşlı uşaqların bir-birinə qarşı göstərdiyi aqressiyanı xarakterizə edən davranışdır. Daha sonra yuxarı siniflərdə, universitetdə, iş yerlərində və hətta qocalar evi kimi toplu şəkildə yaşayışın mövcud olduğu icmalarda da baş verə bilər. Adı çəkilən yerlərdə bir-birinə qarşı aqressiv davranışları izah edən bullinq ingiliscədən kiməsə zərər yetirməyə meyilli olma, kimisə qorxutma, nəyəsə məcbur etmə kimi mənalara gəlir. Xüsusən də, əgər bu davranışlar digərlərinə nəzərən gücsüz, ictimai imtiyazları az olan, asanlıqla alçaltmaq, əzmək mümkün olan və özünü müdafiə edəcək mövqedə olmayan fərdlərə qarşı təkrarən törədilirsə bunlar bullinq halları kimi xarakterizə edilir [3].

Bullinq həm də bir dəfə deyil, vaxtaşırı olaraq həyata keçirilir və adətən fiziki cəhətdən güclü olan uşaqlar digərlərinə qarşı bullinq törədir [6]. Bullinq kiməsə ləqəb qoşmaq, söyüş və alçaldıcı sözlər işlətmək, müəyyən bir işi etməyəcəyi təqdirdə qurbanı fiziki şiddət göstərəcəyi, şantaj edəcəyi, ona məxsus olan əşyalara və ya ondan kiçik bacı-qardaşlarına zərər yetirəcəyi ilə qorxutmaq, qrupdan kənarda saxlamaq kimi formalarda törədilə bilər. Dünya üzrə statistikaya nəzər salsaq 12-18 yaş arası uşaqlar arasında aparılmış sorğular nəticəsində onların 20%-nin bullinqlə üzləşdiyi məlum olmuşdur, 30% uşaq isə bu və digər formada bullinq törətdiyini etiraf etmişdir. Bullinqin baş verdiyi an 85% hallarda ətrafda olan digər uşaqlar da buna şahid olurlar [6]. Bullinq təkcə məktəbdə şagirdlər arasında yaşanmır, eləcə də universitet tələbələri arasında, iş yerlərində də bullinq halları müşahidə oluna bilər Bulinq mövzusunun psixoloji ədəbiyyatda təhlili göstərir ki, bulinq aqressiyanın təzahürü kimi meydana gəlir və ilk dönəmlər aqressiv davranışın bir forması kimi öyrənilmişdir. Faktlar göstərir ki, müasir dövrdə yeniyetmə və gənclər arasında aqressivliyin artması cəmiyyətin aktual problemlərindən birinə çevrilmiş və yeniyetmdə aqressivliyin faizi durmadan artır. Çox təəssüf ki, kobudluq, səsin tonunun yüksəldilməsi gündəlik həyatımızda ünsiyyət formasına çevrilib və bu hallarda müşahidə olunan aqressiya demək olar ki, sosiogen xarakter alıb.

Bullinq özündə qurban, bullinq edən, dalaşmaq kimi 3 anlayışı özündə birləşdirir. Əvvəlki araşdırmalar bullinqdən kimin daha çox əziyyət çəkdiyini öyrənməyə çalışıb. Bir sıra tədqiqatlar bullinqin qurbanları arasında psixi sağlamlıq problemləri riskinin daha yüksək olduğunu göstərmişdir [31; 50] ki, bullinqə cəlb edilmənin ən pis təsirləri bullinq qurbanlarına aid edilmişdir [18; 28; 64]. Bəzi yeniyetmələrin niyə başqalarına bullinq etmələrinin sadə və universal izahı yoxdur. Adətən qurban olan uşaqlar müəyyən mənada fərqli (daha qısa/uzun, daha arıq/kök, “gülməli” paltar/eynək taxır, “gülməli” danışır və ya gəzir') olurlar [35]. Aparılan araşdırmalarda dalaşan və bullinq edən yeniyetmələrin psixoloji sağlamlıq riskləri olduğu göstərilmişdir. Dalaşmaq

yeniyetməlikdə şəxsiyyətlərarası zorakılığın və aqressiyanın ən geniş yayılmış təzahürüdür [37; 61].

Bullinq, dominant mövqedən olan şəxslərin başqalarına zehni və ya fiziki əzab vermək niyyətində olduğu aqressiv davranışdır [30]. Bullinqə məruz qalma zəif psixi və fiziki sağlamlıqla (məsələn, depressiya və təşviş) əlaqələndirilmişdir [25; 47]. Bunun üçün Espelage və həmkarları [19] tapdılar ki, bullinqin qurbanları və cinayətkarları arasında intihar düşüncələri və cəhdləri, əlaqəsi olmayan yeniyetmələrlə müqayisədə üç-beş dəfə yüksəkdir. Aparılan araşdırmalar bullinq və depressiv simptomlar arasında əlaqə olduğunu göstərmişlər [25].

Ənənəvi bullinq "başqa bir yeniyetmə və ya bir qrup yeniyetmə tərəfindən istənilən arzuolunmaz aqressiv davranışlar aiddir, müşahidə olunan güc balanssızlığını ehtiva edir və dəfələrlə təkrarlanır və ya təkrarlanma ehtimalı yüksəkdir" [21]. Ümumdünya Səhiyyə Təşkilatının [63] son hesabatları müəyyən edib ki, məktəb yaşlı uşaqların üçdə biri ənənəvi bullinqə məruz qalıb. Bundan əlavə, meta-analitik tədqiqatlar təsdiqlədi ki, ənənəvi bullinq yeniyetmələrin akademik, sosial, fizioloji və psixoloji sağlamlığına mənfi təsir göstərir [4; 22; 60].

Yeniyetmələrdə özünü göstərən aqressiv davranışın təzahürləri və fəsadları vaxtında aradan qaldırılmazsa, bu davranış formasının asosial və deviant davranışa keçməsi ehtimalı artır və yeniyetmələri əsas fəaliyyət növü olan təlim fəaliyyətindən uzaqlaşır, cəmiyyətdə faydalı vətəndaş yetişdirmək vəzifəsi arxa plana keçirilir [45]. Bütün bunlarla yanaşı yeniyetməlik yaş dövründə meydana gələn aqressiya halları yalnız qeyd olunan amillərdən qaynaqlanmır, həm də onların mövcud situasiyaya münasibətinin təzahürü kimi də özünü göstərə bilir. Aqressiv davranışı özündə ehtiva edən bulinq şəxlərin psixoloji sağlamlığına da öz təsirini göstərir [9]. Bullinq ona məruz qalanın psixoloji vəziyyətində depressiya, özünə qapanma, antisosiallıq, intihara meyilli düşüncələr kimi neqativ dəyişikliklərə səbəb olmaqla yanaşı, eləcə də tədris müəssisələrində təlim-tərbiyə və təhsil prosesinin düzgün həyata keçirilməsinə mane olur [9]. Bildiyimiz kimi, psixi sağlamlıq hər bir fərd, eyni zamanda cəmiyyət üçün vacib məsələlərədn biridir. Yeniyetməlik dönəmində şagirdlərin psixi sağlamlığı vacib bir məsələ kimi meydana çıxır. Ümumilikdə, psixi sağlamlıq dedikdə fərdin öz qabiliyyət və bacarıqlarından istifadə edə bilməsi, həyatda müxtəlif stresslərin öhdəsindən gələ bilməsi, produktiv şəkildə fəaliyyət göstərə bilməsi və əməkdaşlıq, qarşılıqlı münasibət yarada bilməsi nəzərdə tutulur [40]. Bu isə ictimai münasibətlərin təməlini təşkil edir. Psixoloji sağlamlığın inkişafı üçün şagirdin risk və çətinliyə məruz qalması və vəziyyətə uyğunlaşamağa çalışaraq həyatın fərqli sahələrində uğur əldə etməsi, eyni zamanda psixoloji sağlamlıq üçün fərdlərin qoruyucu faktorlar olaraq təsvir edilən bəzi şəxsi keyfiyyətlərə sahib olmasıdır [1]. Psixi sağlamlıq dedikdə həmçinin sabit xarakterik keyfiyyətlərə malik müsbət emosional vəziyyət də başa düşülür. Məhz emosional vəziyyət - emosional fon, mənfi emosional vəziyyət psixi

sağlamlığın zəifləməsinə gətirib çıxarır. Mənfi emosiyalar isə öz növbəsində müxtəlif patoloji davranış formalarının yaranmasına təkan verir. Bullinq psixi sağlamlıq baxımından həm fərdi, həm də ictimai sağlamlıq üçün böyük bir riskdir və məktəblərdə onun qarşısının alınmasına nəzarət edilməsi daha aktual hesab edilir [6].

Uşaqlıq və yeniyetməlik dövründəki aqressiya və zorakılıq son bir neçə onillikdə bir çox tədqiqatın diqqət mərkəzində olmuşdur [33; 42]. Bu tədiqiqatçılar ardıcıl olaraq aqressiyanın ciddi formalarının uşaqlıqdan yetkinliyə qədər nisbətən sabit qaldığını bildirirlər; Bununla belə, Loeber və Hay həmçinin, aqressiyanın ilkin formasıının erkən və ya yetkin yeniyetməlik dövründə başlaya biləcəyini iddia edirlər [33].

Bilirik ki, yeniyetməlik dövründə həmyaşıdlarla münasibət, onların fikirləri önəmsəmə və onlar arasında özünü təsdiq etmə daha ön plana çıxır. Belə ki, həmyaşıdların təcavüzkara dəstək olmaqla onun güclənməsinə, qurban olmağın qarşısını almaq üçün müdaxilə etməməklə və ya bullinq edən yeniyetmələrlə əlaqə yaratmaqla bullinqin və qurban olmağın təşviqində oynadığı rol böyükdür [16]. Valideynlərindən müstəqillik tələb edən yeniyetmələr problemləri, hissləri, qorxuları və şübhələrini müzakirə etmək üçün həmyaşıdlarına müraciət edirlər və bununla da dostları ilə keçirdikləri vaxtın əhəmiyyətini artırırlar. Bununla belə, sosial dəstək üçün həmyaşıdlara olan bu etibar sosial statusa nail olmaq üçün artan təzyiqlərlə birləşir [12].

Bullinq araşdırmaları uşaq və yeniyetmələrin inkişafına təsir göstərdiyi üçün son illərdə böyük maraq qazanmışdır. Bullinqin ilkin tərifi Olweus (1991) tərəfindən verilmişdir, o, bunu bir şəxsin başqa şəxs və ya şəxslər tərəfindən qəsdən mənfi hərəkətlərə təkrar-təkrar məruz qalması və buller və qurban arasında güc balanssızlığı yaratması kimi təsvir etmişdir [43]. Ümumiyyətlə, tədqiqatlar ənənəvi bullinq (yəni, canlı, üz-üzə olan) davranışının dörd aspektinin olduğunu göstərir: qəsdən törədilmə, təkrarlanma, güc balansının pozulması və mənfi təsirlərə səbəb olması. Bu, fiziki (məsələn, təpikləmə), verbal (məsələn, incidəcək şeylər söyləmək), münasibətə bağlı (məsələn, dedi-qodu) və kiberbullinq (məsələn, internetdə şəxs haqqında mənfi şərhlər yerləşdirmək) daxil olmaqla xüsusi davranışlara bölünür.

Aparılan araşdırmalar uşaqlıq və yeniyetməlik dövründə bullinq təcrübəsi yaşayanlarların sonrakı sosial və emosional inkişafı arasında əhəmiyyətli əlaqəni müəyyənləşdirmişdilər. Məsələn, həmyaşıdların qurbanı olma bütün yaş qruplarında təşviş, depressiya, aşağı özünə hörmət, psixoz və hətta intiharla əlaqələndirilmişdir [64]. Bundan əlavə, aşağı akademik nailiyyət və məktəbi erkən tərk etmək kimi digər amillər bullinq təcrübələrindən əldə olunan nəticələrdəndir [11; 24].

"İllinois Bulling Şkalası"nı ilk dəfə Espelage, D. L., və Holt, M. K. (2001) ingilis dilində tətbiq etmiş və erkən yeniyetməlik dövründə bullinq və qurban: həmyaşıdların təsiri və psixososial əlaqələri araşdırmışdılar [19]. Onlar bu şkalanı kiçik bir orta qərb şəhərindəki orta məktəb şagirdləri ilə 1999-cu ilin payızı və 2000-ci ilin yazı

semestrləri ərzində bu tədqiqatın iştirakçıları olmuşlar. Orta məktəb əsasən Qafqaz və kənd icmasında yerləşirmiş və əhəmiyyətli sayda aşağı sosial-iqtisadi statuslu ailələr olmuşlar [19].

Beynəlxalq tədqiqatların zənginliyinə baxmayaraq, bullinq və onun təsirləri Azərbaycan Respublikası üzrə məktəblərdə nisbətən az araşdırılıb. Beləliklə, biz mövcud ədəbiyyatların sistematik nəzərdən keçirilməsinin və Azərbaycan məktəblərində uşaq və yeniyetmələr arasında bullinq törədən və qurbanların yayılma nisbətlərini analiz etmək, bununla da, ənənəvi bullinq və kiberbullinqin mövcud vəziyyətinin müəyyən edilməsində vacib və zəruri saydıq. Bunun üçün "İllinois Bulling Şkalası"nın Azərbaycan uşaq və yeniyetmələrinə adaptasiya etməyə çalışdıq.

### 1.2. Bullinqin sıx əlaqədə olduğu psixoloji fenomenlər

Bullinq və psixoloji distress. Bullinqə məruz qalma sıxlığı yeniyetmənin psixoloji distressinə təsir edən amillərdən biridir. Məsələn, dəfələrlə qurbana məruz qalan şagirdlər, bir dəfə zərər çəkmiş şagirdlərlə müqayisədə daha şiddətli depressiv simptomlar bildirdilər, vəziyyətlərini daha təhdidkar kimi qəbul edirdilər və baş verənlərə daha az nəzarət edə bilirdilər [28]. Həmçinin, əldə olunan faktlar yeniyetmələrin bullinqə qarşı emosional reaksiyalarının fərqli olduğunu göstərir. Belə ki, bəziləri təsirlənmir, digərləri isə bundan üzülür və ya qəzəblənir [51]. Psixoloji distress  təşviş, stress və depressiya əlamətləri ilə əlaqədardır [59].

Kiber bullinq izləyicilərinin bir qədər distress hiss etdiklərinə və hadisələrə reaksiya vermək üçün təzyiq hiss etdiklərinə dair sübutlar var [46], lakin nisbətən az sayda insan kiberqurbanları aktiv şəkildə müdafiə edirlər [52]. Bullinq və kiber bullinq təkcə birbaşa iştirak edənlərə deyil, eyni mühitdə olan cəlb olunmamış yeniyetmələrə də təsir göstərir.

Xüsusilə, həmyaşıdları arasında baş verən bullinq və kiber bullinqin şahidi olan şagirdlər sosial media fəaliyyətlərindən nə qədər narahat olduqlarını hiss etmək olur. Sosial media ilə bağlı naarahatedici fikirlər də psixoloji distress əlamətlərini gücləndirə bilər. Son sistematik araşdırmalar bullinqə məruz qalma ilə depressiya, təşviş, stress, zəif ümumi sağlamlıq və intihar düşüncələri və davranışları kimi psixi sağlamlıq problemləri arasında güclü səbəb-nəticə əlaqəsi olduğunu göstərdi [38]. Həmçinin müəyyən edilmişdir ki, bullinq qurbanında daha yüksək səviyyəli psixoloji distress olur [58]. Uşaq və yeniyetmələrin bullinqə məruz qalması psixoloji distressin əlamətlərin (depressiya, təşviş, stress) ortaya çıxmasına və bu da sonrakı səfərlərdə onların təkrar bullinqə məruz qalmalrına və bullinq edənə qarşı müqavimət göstərmə qabiliyyətinin daha da zəifləməsinə gətirib çıxardar.

Bullinq və aqressiya. Məhz yeniyetməlik dövründə həmyaşıd qrupları təbəqələşir, özünütəsdiq və populyarlıq məsələləri getdikcə daha çox aktuallaşır. Tədqiqatlar göstərir ki, məsələn, sərtlik və aqressivlik oğlanlar üçün vacib status

mülahizələridir, xarici görünüş isə qızlar arasında sosial statusun mərkəzi müəyyənedici amilidir [17]. Buna görə də, çox güman ki, həmyaşıdlar tərəfindən qəbul edilmə və status əldə etmək istəyi, yeniyetmə oğlan və qızları ya ləqəb qoşma və ya lağ etməklə digər yeniyetmələrdən üstünlüyünü nümayiş etdirməyə çalışmalarına, bununla da bullinq və zorakılığın artmasına təkan verə bilər [48].

Yeniyetməlik dövründə intihar üçün tanınmış risk faktorlarından biri bullinqə məruz qalmasıdır. Bullinq, dominant mövqedən olan şəxslərin başqalarına zehni və ya fiziki əzab vermək niyyətində olduğu aqressiv davranışdır [30]. Bullinqə məruz qalma, nəticədə intihara səbəb ola biləcək zəif psixi və fiziki sağlamlıqla (məsələn, depressiya və təşviş) əlaqələndirilmişdir [25; 47]. Həqiqətən, əvvəlki tədqiqatlar ardıcıl olaraq bullinqə məruz qalma və intihar riski arasında əlaqəni nümayiş etdirdi [25]. Bunun üçün Espelage və həmkarları [19] tapdılar ki, bullinqin qurbanları və cinayətkarları arasında intihar düşüncələri və cəhdləri, əlaqəsi olmayan yeniyetmələrlə müqayisədə üç-beş dəfə yüksəkdir. Aparılan araşdırmalar bullinq və depressiv simptomlar arasında əlaqə olduğunu göstərmişlər [25].

Bullinq cinayəti və qurbanı geniş şəkildə ənənəvi və kiber kimi təsnif edilir. Ənənəvi bullinq "başqa bir yeniyetmə və ya bir qrup yeniyetmə tərəfindən istənilən arzuolunmaz aqressiv davranışlar aiddir, müşahidə olunan güc balanssızlığını ehtiva edir və dəfələrlə təkrarlanır və ya təkrarlanma ehtimalı yüksəkdir" [21]. Kiberbullinq "arzuolunmaz aqressiv davranış" texnologiyanın vasitəçiliyi ilə baş verir [21]. Ümumdünya Səhiyyə Təşkilatı və Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının son hesabatları müəyyən edib ki, məktəb yaşlı uşaqların üçdə biri ənənəvi bullinqə məruz qalıb [63]. Hər keçən ay isə kiberbullinqin yayılması artmaqdadır. Bundan əlavə, meta-analitik tədqiqatlar təsdiqlədi ki, ənənəvi bullinq və kiberbullinq yeniyetmələrin akademik, sosial, fizioloji və psixoloji rifahına mənfi təsir göstərir [4; 22; 60].

Həqiqətən də, son illərdə xüsusilə kiberbullinqlə bağlı araşdırmalarda partlayış baş verib. Smith, Mahdavi və başqaları (2008) tərəfindən müəyyən edilmişdir ki, kiberbullinq "bir qrup və ya şəxs tərəfindən mobil telefonlardan və ya internetdən istifadə etməklə, dəfələrlə və zamanla özünü asanlıqla müdafiə edə bilməyən qurbana qarşı həyata keçirilən aqressiv, qəsdən edilən hərəkət". Kiberbullinqin tərifi ənənəvi bullinqə oxşar elementləri (yəni, qəsdən törədilmə, güc balanssızlığı və mənfi təsirlər) özündə birləşdirsə də, ikisini fərqləndirən bir neçə amil var. Bunlardan ən bariz olanı kiberbullinq hadisəsinə əlavə oluna bilən anonimlikdir və bunun buller və qurban arasında güc iyerarxiyasını artıra biləcəyini iddia etmək olar. Digər əhəmiyyətli fərq, kiberbullinq hadisəsinin çata biləcəyi geniş auditoriyadır ki, bu da hadisənin qurbanın həyatına təsirini artıra bilər.

Bullinq və rifah. Pozitiv psixologiya və pozitiv təhsilin inkişaf edən elmləri uşaq və yeniyetmələrin psixoloji rifahını təşviq edən mexanizmləri başa düşməkdə

pozitiv psixoloji oriyentasiyaların töhfələrini başa düşməyin vacibliyini vurğulayırlar [5; 62].

Əvvəlki araşdırmalar bullinqin uşaqlar və yeniyetmələrin psixoloji rifahına ciddi təsir göstərdiyini müəyyənləşdirmişlər [3; 7; 39]. Bundan əlavə, empirik sübutlar psixoloji rifahı təşviq etmək üçün müsbət psixoloji oriyentasiyaların təsirlərini dəstəkləmişdir. Məsələn, Kim və kolleqaları (2019) psixoloji distress ilə psixoloji rifah arasında əhəmiyyətli dərəcədə əlaqəli olduğunu bildirdilər.

Məktəb bullinqi yeniyetmələrin sağlam inkişafı və rifahı üçün əsas risk faktorudur və bu uşaqlıqdan yetkinliyə qədər olan dövrdə pis psixososial fəaliyyət və artan uyğunlaşma problemləri ilə əlaqələndirilir. Bullinqlə bağlı tədqiqatların əksəriyyəti daha inkişaf etmiş və ya Qərb ölkələrində aparılıb və az inkişaf etmiş ölkələrdə, o cümlədən Azərbaycanda bullinq haqqında az məlumat vardır. Ədəbiyyatların təhlili pozitiv psixoloji oriyentasiyaların daha yaxşı yeniyetmələrin psixoloji rifah nəticələri ilə əlaqəli olduğunu irəli sürülmüşdür [23; 30].

Kiberbullinq xüsusilə yeniyetmələrin rifahına mənfi təsir göstərə bilər [29]. Bir sıra tədqiqatlar kiber qurbanlarda təşviş və depressiya səviyyələrinin, habelə yemək pozğunluqları, yuxu çatışmazlığı, intihar düşüncələri və intihara cəhdlərin artdığını bildirdi [20; 36; 65]. Sinqapurdan edilən bir araşdırma, kiber qurbanların narahatlıq və ya depressiya kimi daha çox daxili problemləri olduğunu bildirdi, halbuki həm kiber zorakılıq, həm də kiber zorakılıq qurbanları aqressiv davranış kimi daha çox xaricə çevrilən problemlər bildirdilər [44]. Norveç və Finlandiyadan olan yeniyetmələr arasında aparılan tədqiqatlar həm ənənəvi bullinq, həm də kiber bulinq baş ağrısı və qarın ağrısı kimi psixosomatik simptomlar arasında əlaqə olduğunu göstərdi [56].

Aparılan araşdırmalar nəticəsində yeniyetmələrin bullinqə məruz qalmasının müxtəlif formaları ilə psixoloji distress və aşağı emosional rifahı arasında əlaqə olduğunu müəyyənləşdirdilər [58]. Belə ki, yeniyetmələrin bullinqə məruz qaldıqları zaman onlarda psixoloji distress arta bilər və nəticədə bu da onlarda psixoloji rifahın aşağı enməsinə səbəb ola bilər. Bullinqə məruz qaalmayan uşaqlarda isə psixoloji distress aşağı olar və nəticədə isə psixoloji rifah yüksək olar.

## II Fəsil. "İllinois Bullinq şkalası"nın Azərbaycan dilinə adaptasiyası

### 2.1.Tədqiqatın metodikası

Bu məqalədə tədqiqat metodologiyası olaraq kross-sektional sorğu dizaynından istifadə etmişdir. İllinois bullinq şkalasının Azərbaycanlı yeniyetmələrlə istifadəsi üçün adaptasiya olunması tərcümə və geri tərcümə, ekspert rəyləri və pilot sınaqdan

ibarət çox mərhələli prosesi əhatə edirdi. Məlumatlar sərbəst seçim yolu ilə Azərbaycanda 3320 yeniyetmədən toplanılmışdır. Şkalanın psixometrik xüsusiyyətlərini qiymətləndirmək üçün təsdiqləyici faktor analizi, paralel validlik və etibarlılıq təhlilləri aparılmışdır. PROCESS vasitəçi analizindən istifadə edərək, tədqiqatda bullinq, psixoloji sıxıntı və rifah arasındakı əlaqə araşdırılmışdır. Ümumilikdə, bu tədqiqatda azərbaycanlı yeniyetmələr arasında bullinq və müxtəlif psixoloji məsələlər arasında əlaqəni araşdırmaq üçün kəmiyyət tədqiqat yanaşmasından istifadə edilmişdir. Tədqiqat üçün məlumatlar 2023-cü ilin avqust və sentyabr aylarında toplanıb.

10-17 yaş arasında olan 3320 yeniyetmə (orta yaş = 13.13 il, standart xəta = 1.77) bu tədqiqatın subyektlərini təşkil etmişdir. Ümumilikdə 5-11-ci siniflərdə təhsil alan 55,2% təşkil edən 1832 nəfər qadın, 44,8% təşkil edən 1488 kişi cinsinin nümayəndəsi sorğuda iştirak etmişdir. Onlar 67,8% (n = 2250) akademik performanslarını orta, 6,5% (n = 215) aşağı, qalan 25,8% (n = 855) yüksək kimi qiymətləndirib. Doğum sırası araşdırıldıqda, 6,9% (n = 229) tək uşaqlar, 45,5% (n = 1512) ilk doğulanlar, 16,8% (n = 168) ortancıl övladlar və 30,7% (n = 1020) ailənin ən kiçik övladıdır. Bundan əlavə, onların valideynlərinin 91,2%-i (n = 3027) birlikdə yaşayır, 8,8%-i (n = 293) boşanıb. Sosial-iqtisadi vəziyyət nöqteyi-nəzərindən araşdırıldıqda iştirakçıların yarıdan çoxu (n = 1949, 58,7%) öz maddi vəziyyətlərini orta, 5,9%-i (n = 194) aşağı, 35,5%-i (n = 1177) isə yüksək qiymətləndirib.

Məlumatlar onlayn sorğu forması vasitəsilə toplanmış və məktəb psixoloqları vasitəsilə iştirakçılara təqdim edilmişdir. Hazırkı tədqiqat üçün iştirakçılar məktəblərdən sərbəst seçmə üsulu ilə seçilmişdir. Bu üsul tədqiqat qrupuna tədqiqat üçün asanlıqla əldə edilə bilən və əlverişli nümunə seçməyə imkan vermişdir. Məktəb psixoloqları öz məktəblərində yeniyetmələrlə hazırlanmış onlayn sorğu linklərini paylaşmışdırlar. Onlayn sorğunun giriş hissəsində tədqiqatla bağlı iştirakçılara məlumat verilmiş və iştirak üçün razılıq alınmışdır. Sorğuda ilkin olaraq şəxs barədə demoqrafik məlumatları əldə etməyimizə kömək edən suallar yerləşdirilmiş, davamında isə Azərbaycan dilinə adaptasiya olunması planlaşdırılmış şkala və arasında korrelyasiya əlaqəsini öyrənəcəyimiz digər şkalar yerləşdirilmişdir. Onlayn sorğu zamanı natamam cavablara imkan vermədiyi üçün tədqiqatda heç bir məlumat itkisi baş verməmişdir.

Tədqiqatda aşağıdakı ölçmə vasitələri istifadə olunmuşdur:

1. **İllinois Bullinq şkalası** bullinqin 3 fərqli aspektini (bullinq, qurban və dalaşmaq) tədqiq etmək məqsədi ilə tərtib olunmuşdur. 18 maddədən ibarət şkala 5 ballıq sistem (0 bal- “heç vaxt”, 1 bal-“1 və ya 2 dəfə”, 2 bal- “3 və ya 4 dəfə”, 3 bal- “5 və 6 dəfə”, 4 bal- “7 və ya daha çox”) üzrə qiymətləndirilir.

| Təlimat: Aşağıdakı sualların hər biri üçün bu fəaliyyəti neçə dəfə etdiyinizi və ya son 30 gündə bu hadisələrin sizinlə neçə dəfə baş verdiyini seçin.<br><br>⓪Heç vaxt, ①1 və ya 2 dəfə, ②3 və ya 4 dəfə, ③5 və ya 6 dəfə, ④7 və ya daha çox | | | | | |
|---|---|---|---|---|---|
| **Mən əylənmək üçün digər şagirdləri incidirdim** | ⓪ | ① | ② | ③ | ④ |
| **Sinifdə digər şagirdlərə sataşırdım** | ⓪ | ① | ② | ③ | ④ |
| **Mən asanlıqla məğlub edə biləcəyim şagirdlərlə dalaşmışam** | ⓪ | ① | ② | ③ | ④ |
| **Digər şagirdlər mənə sataşırdılar** | ⓪ | ① | ② | ③ | ④ |
| **Digər şagirdlər mənə gülürdülər** | ⓪ | ① | ② | ③ | ④ |
| **Digər şagirdlər məni adlarla çağırırdılar** | ⓪ | ① | ② | ③ | ④ |
| **Digər şagirdlər tərəfindən döyülüb və itələnmişəm** | ⓪ | ① | ② | ③ | ④ |
| **Digər şagirdlərə sataşmağa kömək etmişəm** | ⓪ | ① | ② | ③ | ④ |
| **Digər şagirdlərə sataşmışam.** | ⓪ | ① | ② | ③ | ④ |
| **Fiziki olaraq dalaşmışam** | ⓪ | ① | ② | ③ | ④ |
| **Başqa bir şagirdi incitməklə və ya vurmaqla hədələmişəm** | ⓪ | ① | ② | ③ | ④ |
| **Əsəbiləşdiyim üçün fiziki olaraq dalaşmışam** | ⓪ | ① | ② | ③ | ④ |
| **Kimsə məni birinci vuranda cavab olaraq geri vurmuşam** | ⓪ | ① | ② | ③ | ④ |
| **Qəzəblənəndə kiminləsə kobud davranmışam** | ⓪ | ① | ② | ③ | ④ |
| **Digər şagirdlər haqqında şayiələr yaymışam.** | ⓪ | ① | ② | ③ | ④ |
| **Mübahisələrə və ya münaqişələrə təhrik etmişəm** | ⓪ | ① | ② | ③ | ④ |
| **İnsanları dalaşmağa təşviq etmişəm** | ⓪ | ① | ② | ③ | ④ |
| **Digər şagirdləri dostluğumdan kənarlaşdırmışam.** | ⓪ | ① | ② | ③ | ④ |

Cədvəl 2.1. İllinois Bullinq şkalası

2. **Uşaq və yeniyetmələr üçün psixoloji sıxıntı şkalası (CAPDS-10)** De Stefano (2022) tərəfindən hazırlanmışdır və ümumi 10 maddədən ibarətdir (məsələn, "10. Mübahisə etmişəm, dava etmişəm və başqa insanları da buna təhrik etmişəm"). CAPDS-10 4 ballıq Likert şkalasından istifadə edərək ən son 2 həftəlik müddət ərzində

narahatlığı qiymətləndirir (0-“qətiyyən yox”, 3-“demək olar ki, hər gün”). Bu şkalada maddələr dörd altqrupdan ibarətdir: Depressiya (1-3-cü maddələr), təşviş (4-6-cı maddələr), somatik şikayətlər (7-ci maddə) və aqressiv davranış (8-10-cu maddələr). CAPDS-10-un Kronbax alfa daxili tutarlılıq əmsalı .86-dır.

| Zəhmət olmasa, son 2 həftənizi gözdən keçirərək sizə uyğun olan bəndi işarələyin.<br>0.Qətiyyən yox, 1.Bir neçə gün, 2.Günün yarısından bir qədər çox, 3.Demək olar ki, hər gün | | | | |
|---|---|---|---|---|
| **Mən qəzəb, stress və narahatlıq hiss etmişəm** | ⓪ | ① | ② | ③ |
| **Mən stressin öhdəsindən gələ bilməmişəm və ya onunla məşğul ola bilməmişəm** | ⓪ | ① | ② | ③ |
| **Mən narahat olmuşam və bir yerdə oturmaqda çətinlik çəkmişəm** | ⓪ | ① | ② | ③ |
| **Nələrisə etməyi nə xoşlamamışam, nə də həzz almamşıam** | ⓪ | ① | ② | ③ |
| **Özümü ruhdan düşmüş, kədərli və ya bədbəxt hiss etmişəm** | ⓪ | ① | ② | ③ |
| **Özümü ləng hiss etmişəm və ya özümdə enerji çatışmazlığı hiss etmişəm** | ⓪ | ① | ② | ③ |
| **Özümdə fiziki ağrılar, yorğunluq hiss etmişəm və yuxu problemim olub** | ⓪ | ① | ② | ③ |
| **Valideynlərimin sözündən çıxmışam və ya valideynlərimə qarşı çıxmışam** | ⓪ | ① | ② | ③ |
| **Özümü əsəbi, xoşagəlməz hiss etmişəm və ya özümdən çıxmışam** | ⓪ | ① | ② | ③ |
| **Mübahisə etmişəm, dava etmişəm və başqa insanları da buna təhrik etmişəm** | ⓪ | ① | ② | ③ |

Cədvəl 2.2. Uşaqlar və yeniyetmələr üçün psixoloji sıxıntı şkalası (CAPDS-10)

**3. Varvik-Edinburq psixi rifah şkalası**-İştirakçıların psixoloji rifah səviyyəsini ölçmək üçün 2007-ci ildə Tennant və həmkarları tərəfindən yaradılmışdır. 15 maddədən ibarət olan şkala psixi refahı bir neçə fərqli aspektdən nəzərdən keçirir. İştirakçılar şkala maddələrin 5 ballıq Likert şkala (1-heç vaxt, 5-hər zaman) ilə qiymətləndirirlər. Şkalanın daxili tutarlılık əmsalı Kronbax alfa üçün .94. nəticəsi əldə olunmuşdur.

| Zəhmət olmasa, son 2 həftə ərzində təcrübənizi ən yaxşı təsvir edən bölməni işarələyin.<br>**①heç vaxt, ②nadir hallarda, ③bəzən, ④tez-tez, ⑤hər zaman** | | | | | |
|---|---|---|---|---|---|
| **Mən gələcəyə nikbin baxırdım** | ① | ② | ③ | ④ | ⑤ |
| **Özümü faydalı hiss edirdim** | ① | ② | ③ | ④ | ⑤ |
| **Özümü rahat hiss edirdim** | ① | ② | ③ | ④ | ⑤ |
| **Başqa insanlar mənə maraqlı idi** | ① | ② | ③ | ④ | ⑤ |
| **Enerjili idim** | ① | ② | ③ | ④ | ⑤ |
| **Problemlərin öhdəsindən yaxşı gəlirdim** | ① | ② | ③ | ④ | ⑤ |
| **Aydın düşünürdüm** | ① | ② | ③ | ④ | ⑤ |
| **Özümdən razı idim** | ① | ② | ③ | ④ | ⑤ |
| **Özümü başqa insanlara yaxın hiss edirdim** | ① | ② | ③ | ④ | ⑤ |
| **Özümə inanırdım** | ① | ② | ③ | ④ | ⑤ |
| **Bəzi şeylər haqqında öz fikrimi formalaşdıra bilirdim** | ① | ② | ③ | ④ | ⑤ |
| **Sevildiyimi hiss edirdim** | ① | ② | ③ | ④ | ⑤ |
| **Yeniliklər mənə maraqlı idi** | ① | ② | ③ | ④ | ⑤ |
| **Özümü şən hiss edirdim** | ① | ② | ③ | ④ | ⑤ |

Cədvəl 2.3. Varvik-Edinburq psixi rifah şkalası

Yuxarıda göstərilən ölçmə vasitələrindən əlavə, tədqiqatda iştirak edənlər barədə sosial-demoqrafik (yaş, cins və s.) məlumatların əldə olunması baxımdan kiçik anket suallarından istifadə olunmuşdur.

Bu tədqiqatda "İllinois Bullinq Şkalası" Azərbaycan dilinə adaptasiya olunmuş və üçölçülü strukturu təsdiqləyici faktor analizə məruz qalmışdır. Şkalanın

strukturunun təsdiqləyici faktor analiz vasitəsilə araşdırılması nəticəsində, şkalanın üçölçüsünün bu tədqiqatda əldə olunan məlumatlarla uyğunluq təşkil etdiyi ortaya çıxmışdır. Adaptasiya olunmuş şkalanın daxili tutarlılığı Kronbax alfa, McDonald omeqa və Guttman lambda da daxil olmaqla çoxsaylı etibarlılıq əmsallarından istifadə etməklə qiymətləndirilmişdir. Bundan əlavə, konvergent etibarlılığı qiymətləndirmək üçün adaptasiya olunmuş İllinois Bullinq şkalası ilə psixoloji sıxıntı və rifah şkalaları arasında korrelyasiya araşdırılmışdır. Bu təhlil şkalanın konvergent etibarlılığını dəstəkləyən digər psixoloji konstruksiyalar ilə gözlənilən əlaqələri nümayiş etdirib-göstərmədiyini müəyyən etmək məqsədi daşıyırdı. Təhlillər zamanı həmçinin bullinq və psixi rifah arasında əlaqədə psixoloji sıxıntının vasitəçi rolunu araşdırılmışdır. Psixoloji sıxıntının bullinq təcrübəsi ilə iştirakçıların psixi rifahı arasındakı əlaqəni nə dərəcədə izah etdiyini aydınlaşdırmaq üçün vasitəçilik təhlili aparılmışdır.

## 2.2. Tədqiqat nəticələrinin təhlili

Azərbaycan dilinə adaptasiya olunmuş İllinois Bullinq Şkalasının struktur validliyinin qiymətləndirilməsi bullinq edən, qurban və dalaşmaq ilə bağlı anlayışlardan ibarət güclü üç faktorlu nəticəni ortaya qoymuşdur. İllinois Bullinq Şkalasının bütün maddələri üçün əhəmiyyətli faktor yüklərinin olması bu strukturu dəstəkləmək üçün inandırıcı sübutlar təqdim etmişdir. Bu təsdiq, statistik əhəmiyyəti ifadə edən $\chi 2$ (160, N = 3320) = 2215.65, $p < .001$ daxil olmaqla, modelin statistik uyğunluq indeksləri ilə təsdiq edilmişdir. Bundan əlavə, model CFI = 0.90, GFI = 0.93, TLI = 0.90, SRMR = 0.06 və RMSEA = 0.07 kimi bir sıra uyğunluq göstəriciləri üzrə məqbul uyğunluq nümayiş etdirmişdir. Xüsusilə, modeldəki dörd amil arasında qarşılıqlı əlaqə də əhəmiyyətli idi ki, bu da İllinois Bullinq Şkalasının struktur validliyini daha da gücləndirir.

Şkalanın daxili tutarlılığının etibarlılığının hərtərəfli qiymətləndirilməsi üç fərqli əmsaldan istifadə etməklə aparılmışdır: Kronbax alpha, McDonald omeqa və Guttman lambda.

Bullinq edən ($\alpha$ =.745, $\omega$ = .752 və $\lambda 6$ = .793), qurban ($\alpha$ =.771, $\omega$ = .793 və $\lambda 6$ = .735) və dalaşmaq ($\alpha$ = .777, $\omega$ = .820 və $\lambda 6$ = .782) üçün etibarlılıq əmsalları alt şkalalarının məqbul səviyyələri üstələdiyi aşkar edilmişdir ki, bu da güclü etibarlılıq səviyyəsini göstərir (Cədvəl 2.4-ə baxın).

| | Bullinq edən | Qurban | dalaşmaq |
|---|---|---|---|
| Kronbax α | .745 | .771 | .777 |
| McDonald ω | .752 | .793 | .820 |

| Guttmann λ6 | .793 | .735 | .782 |
|---|---|---|---|

Cədvəl 2.4. İllinois Bullinq şkalası üçün etibarlılıq əmsalları




Şəkil 2.1. İllinois Bullinq şkalasının Azərbaycan dilində strukturunun təsdiqləyici faktor analizi

İllinois Bullinq Şkalasında üç amilin - bullinq edən, qurban və dalaşmaq - konvergent etibarlılığını qiymətləndirmək üçün tədqiqatda Cədvəl 2.5-də qeyd edildiyi kimi iki fərqli şkaladan istifadə edilmişdir: "Uşaq və yeniyetmələrin psixoloji sıxıntı şkalası" və "Psixi rifah şkalası". Qeyd etmək lazımdır ki, bütün korrelyasiya təhlilləri statistik əhəmiyyətli nəticələr vermişdir ($p < .001$). Gözlənildiyi kimi, İllinois Bullinq Şkalasının amilləri psixoloji sıxıntı ilə müsbət korrelyasiya nümayiş etdirmişdir ($r = .286$ ilə .443 arasında dəyişir). Əksinə, bu amillər rifah şkalası ilə mənfi korrelyasiya nümayiş etdirmişdir ($r = -.225$ ilə .322 arasında dəyişir). Bu nəticələr İllinois Bullinq Şkalasının Azərbaycan versiyasının konvergent validliyini vurğulayır.

| Dəyişən | Bullinq | Qurban | dalaşmaq |
|---|---|---|---|
| Psixoloji sıxıntı<br>Rifah | .433*<br>-.322** | .383*<br>-.247 | .286**<br>-.225** |

Qeyd. **p<.001

Cədvəl 2.5. İllinois Bullinq Şkalasının konvergent validliyi

Şkalanın proqnozlaşdırıcı validliyini qiymətləndirmək üçün vasitəçilik təhlili aparılmışdır. Bu təhlil psixoloji sıxıntının bullinq edən/qurban/dalaşmaq və rifah arasında əlaqəyə vasitəçilik edib etmədiyini araşdırmaq üçün yükləmə metodundan istifadə etmişdir. Şəkil 2.2-də reqressiya yollarının nəticələrini və vasitəçilik təhlilində qiymətləndirilmiş birbaşa təsirləri göstərir.




Şəkil 2.2. Vasitəçilik analizinin nəticələri

Analiz prosesi bullinqin psixoloji sıxıntı ilə bağlı əhəmiyyətli mənfi proqnozlaşdırıcı güc nümayiş etdirdiyini aşkar edərək birbaşa təsirlərin hərtərəfli araşdırılmasını əhatə etmişdir (B = 0.795, t = 27.72, p < .001). Psixoloji sıxıntının vasitəçiliyi ilə bullinqin rifah üzərində vasitəçi təsirlərini təsdiqləmək üçün bootstrap təhlili aparılmışdır. Əldə olunan nəticələr bullinq və rifah arasındakı əlaqədə psixoloji sıxıntının (bootstrap dəyəri = -.426, 95%CI = -.497, -.363) əhəmiyyətli vasitəçi rolunu təsdiqləmişdir. Qurbanın psixoloji sıxıntıya əhəmiyyətli və mənfi proqnozlaşdırıcı

təsirinin olduğu da əldə olunan nəticələr arasında idi (B = .889, t = 25.39, p < .001). Nəticələr, qurban olma və rifah arasındakı əlaqədə psixoloji sıxıntının (bootstrap dəyəri = -.508, 95%CI =-.581, -.438) əhəmiyyətli vasitəçi rolunu təsdiq etmişdir. Nəhayət, dalaşmaq psixoloji sıxıntıya mənfi proqnozlaşdırıcı təsir göstərmişdir (B = .748, t = 20.68, p < .001).

Əldə olunan nəticələr dalaşmaq və rifah arasındakı əlaqədə psixoloji sıxıntının (bootstrap dəyəri = -.429, 95%CI = -.495, -.369) əhəmiyyətli dərəcədə vasitəçi rol oynadığını göstərmişdir.

## Nəticə

● "İllinois Bullinq şkalası"nın Azərbaycan dilinə uyğunlaşdırılmış variantının təsdiqedici faktor analizinin psixometrik nəticələri orijinal versiyanın strukturunu təsdiqləmişdir.

● Təhlil göstərdi ki, 18 maddədən ibarət (birölçülü) şkala fərdlərə öz rifah, psixoloji sıxıntı, zorakılığa məruz qalma, qurban roluna keçmə səviyyələrini qiymətləndirməyə imkan verir. Nəticələr göstərir ki, şkala daxili tutarlılıq və etibarlılıq baxımından qənaətbəxş psixometrik xüsusiyyətlərə malikdir.

● İllinois Bullinq şkalasının etibarlılıq səviyyəsi qənaətbəxş hesab edilib. Bu şkala üçün Kronbax alfa, McDonald omeqa və Gutman Lambda etibarlılıq əmsalları validlik üçün müəyyən edilmiş qaydalara uyğun gələn məqbul daxili uyğunluğu göstərib.

● Konvergent etibarlılıq təhlilləri İllinois Bullinq şkalası ilə "Uşaq və yeniyetmələrin psixoloji sıxıntı şkalası" arasında müsbət korrelyasiya aşkar edib. Bu da zorakılığa daha çox məruz qaldıqca psixoloji sıxıntının artdğını göstərib. Şkala həmçinin "Varvik-Edinburq psixi rifah şkalası" ilə mənfi korrelyasiyanı müşahidə edib. Bu müşahidəyə gpörə zorakılıq yüksək səviyyədə olarsa, rifah aşağı səviyyədə olar nəticəsinə gəlinib. Zorakılığın 3 alt ölçüsü (bullinq edən, qurban və dalaşmaq) və stress arasındakı əlaqə araşdırılıb.

● Araşdırma İllinois Bullinq şkalasının proqnozlaşdırıcılığını təsdiqləyib. Nəticələrə əsasən, zorakılıq yüksəldikcə narahatlıq, stress və depressiya üçün risq faktoru artıb. Mövcud ədəbiyyatlar zorakılıq və mənfi psixoloji nəticələr arasında birbaşa əlaqəni göstərən bu assosasiyaları dəstəkləyib.

● Ümumilikdə tədqiqat Azərbaycan kontekstində uyğunlaşdırılmış "İllinois Bullinq şkalası"nın psixometrik xüsusiyyətlərinə və etibarlılığına dair dəyərli fikirlər vəd edib. Nəticələr şkalanın tətbiq edilə biləcəyini, etibarlılığını, validliyini təsdiqləyərək bullinqin azərbaycanlı uşaq və yeniyetmələrin psixi sağlamlığına və rifahına mənfi təsirini vurğulayıb.

"İllinois Bullinq şkalası"nın Azərbaycan dilinə adaptasiyası Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin sifarişi ilə həyata keçirilmişdir.

## Ədəbiyyat siyahısı:


1. Öz, F., Yılmaz, E. B. Ruh sağlığının korunmasında önemli bir kavram: Psikolojik sağlamlık // Hacettepe Üniversitesi Hemşirelik Fakültesi Dergisi, 2009, 16(3), s. 82-89.
2. Akbari Balootbangan, A., Talepasand, S. Validation of the Illinois Bullying Scale in primary school students of Semnan // - Iran. Journal of Fundamentals of Mental Health, - 2015. 17(4), - p. 109–185.
3. Alikasifoglu, M., Erginoz, E., Ercan, O. Bullying behaviours and psychosocial health: Results from a cross-sectional survey among high school students in Istanbul // European Journal of Pediatrics, - Turkey: - 2007. 166, №12, p. 1253–1260.
4. Arseneault, L., Bowes, L., Shakoor, S. Bullying victimization in youths and mental health problems: ‘Much ado about nothing’? // Psychological medicine, - 2010. 40(5), p. 717-729
5. Arslan, G. Positive psychological traits, school functioning, and psychological adjustment in elementary schoolchildren // Journal of Psychologists and Counsellors in Schools, - 2019 29(2), p. 139–150
6. Barhight, L. R., Hubbard, J. A., Hyde, C. T. Children’s physiological and emotional reactions to witnessing bullying predict bystander intervention // Child development, - 2013, 84(1), p. 375-390
7. Bender, D., Lösel, F. Bullying at school as a predictor of delinquency, violence and other anti-social behaviour in adulthood // Criminal Behaviour and Mental Health, - 2011. 21(2), - p. 99–106.
8. Bosworth, K., Espelage, D. L., Simon, T. R. Factors associated with bullying behavior in middle school students // The Journal of Early Adolescence, - 1999. 19(3), - p. 341–362.
9. Bunnett, E. R. Bullying in pre-adolescents: Prevalence, emotional intelligence, aggression and resilience // Issues in Educational Research, - 2021, 31(4), p. 1049-1066.
10. Carretero Bermejo, R., Nolasco Hernández, A., Sánchez, L. G. Study of the relationship of bullying with the levels of eudaemonic psychological well-being in victims and aggressors // Sustainability, - 2022. 14(9), Article 5609.
11. Cornell, D., Gregory, A., Huang, F. Perceived prevalence of teasing and bullying predicts high school dropout rates // Journal of Educational Psychology, - 2013. 105(1), - p. 138–149.

12. Corsaro, W. A., Eder, D. Children's peer cultures // Annual Review of Sociology, - 1990. 16, - p. 197–220.
13. Crick, N. R. The role of overt aggression, relational aggression, and prosocial behavior in the prediction of children's future social adjustment // Child Development, - 1996. 67(5), - p. 2317–2327.
14. De Stefano, C., Laurent, I., Kaindje-Fondjo, V.C. Children and adolescents psychological distress scale during COVID-19 pandemic: Validation of a psychometric instrument (CONFEADO study) // Frontiers in Psychiatry, - 2022. 13, Article 843104.
15. Demir, E. Exploring the nexus of positive childhood experiences and conflict resolution styles: Unveiling the keys to harmonious relationship dynamics // Journal of Social and Educational Research, - 2023. 2(1), - p. 8–13.
16. Dornbusch, S. M. The sociology of adolescence // Annual Review of Sociology, - 1989. 15, - p. 233–259.
17. Eder, D. School Talk: Gender and Adolescent Culture. New Brunswick, – New Jersey: Rutgers University Press. - 1995
18. Eisenberg, M. E., Gower, A. L., McMorris, B. J., & Bucchianeri, M. M. Vulnerable bullies: Perpetration of peer harassment among youths across sexual orientation, weight, and disability status. M. E. Eisenberg, A. L. Gower, B.L. McMorris, M. M. Bucchianeri // American journal of public health, - 2015, 105(9), p. 1784-1791.
19. Espelage, D. L., Holt, M. K. Bullying and victimization during early adolescence: Peer influences and psychosocial correlates // Journal of emotional abuse, 2001, 2(2-3), p. 123-142.
20. Fahy, A.E., Stansfeld, S.A., Smuk, M. Longitudinal associations between cyberbullying involvement and adolescent mental health // Journal of Adolescent Health, - 2016. 59, №5, - p. 502–509.
21. Gladden, R. M., et al. Bullying surveillance among youths: Uniform definitions for public health and recommended data elements, version 1.0. R. M. Gladden, A. M. Vivolo-Kantor, M. E. Hamburger, C.D. Lumpkin, - 2014
22. Glassner, S. D., Cho, S. Bullying victimization, negative emotions, and substance use: Utilizing general strain theory to examine the undesirable outcomes of childhood bullying victimization in adolescence and young adulthood // Journal of Youth Studies, - 2018, 21(9), p. 1232-1249
23. Guerra, N. G., Bradshaw, C. P. Linking the prevention of problem behaviors and positive youth development: core competencies for positive

youth development and risk prevention // New Directions for Child and Adolescent Development, - 2008, (122), p. 1–17

24. Hammig, B., Jozkowski, K. Academic achievement, violent victimization, and bullying among U.S. high school students // Journal of Interpersonal Violence, - 2013. 28, - p. 1424–1436.
25. Hertz, M.F., Donato, I., Wright, J., Bullying and suicide: a public health approach // J. Adolesc. Health, 2013, 53, p. 1–S3.
26. Horoz, N., Buil, J.M., Koot, S. Children's behavioral and emotional problems and peer relationships across elementary school: Associations with individual- and school-level parental education // Journal of School Psychology, - 2022. 93, p. 119–137.
27. Huesmann, L. R., Dubow, E. F., Boxer, P. Continuity of aggression from childhood to early adulthood as a predictor of life outcomes: Implications for the adolescent-limited and life-course-persistent models. // Aggressive Behavior, - 2009. 35(2), - p. 136–149.
28. Hunter, S. C., Boyle, J. M. E., Warden, D. Perceptions and correlates of peer-victimization and bullying // British Journal of Educational Psychology, - 2007. 77, - p. 797–810.
29. Kim, S., Boyle, M. H., Georgiades, K. Cyberbullying victimization and its association with health across the life course // Canadian Journal of Public Health, - 2017. 108 (5–6), - p. 468–474.
30. Kim, Y.S., Leventhal, B., Bullying and suicide. a review // Int. J. Adolesc. Med. Health, 2008, 20, p. 133–154.
31. Klomek, A. B., Sourander, A., Gould, M. The association of suicide and bullying in childhood to young adulthood: A review of cross-sectional and longitudinal research findings // The Canadian Journal of Psychiatry, 2010, 55(5), p. 282-288.
32. Kutuk, H. Investigating the role of resilience as a mediator in the link between internet addiction and anxiety // Journal of Social and Educational Research, - 2023. 2(1), - p. 14–21.
33. Loeber, R., Hay, D. Key issues in the development of aggression and violence from childhood to early adulthood // Annual Review of Psychology, - 1997. 48, - p. 371–410.
34. Lohmeyer, B., & Threadgold, S. Bullying affects: the affective violence and moral orders of school bullying // Critical Studies in Education, - 2023. p. 1–18.
35. Mark, L., Värnik, A., Sisask, M. Who suffers most from being involved in bullying—bully, victim, or bully-victim? // Journal of school health, 2019, 89(2), p. 136-144.

36. Mateu, A., Pascual-Sánchez, A., Martinez-Herves, M., Hickey, N., Nicholls, D., Kramer, T. Cyberbullying and post-traumatic stress symptoms in UK adolescents // Archives of disease in childhood, 2020, 105(10), p. 951-956.
37. Molcho, M., Harel, Y., Dina, L. O. Substance use and youth violence. A study among 6th to 10th grade Israeli school children // International Journal of Adolescent Medicine and Health, 2004, 16(3), p. 239-252.
38. Moore, S. E., Norman, R. E., Suetani, S., Thomas, H. J., Sly, P. D., Scott, J. G. Consequences of bullying victimization in childhood and adolescence: A systematic review and meta-analysis // World journal of psychiatry, 2017, 7(1), p. 60
39. Nansel, T.R., Craig, W., Overpeck, M.D. Cross-national consistency in the relationship between bullying behaviors and psychosocial adjustment // Archives of Pediatrics & Adolescent Medicine, - 2004. 158, №8, p. 730–736.
40. Nilsson, D., Svedin, C. G., Lundqvist, C., Dahlström, Ö. Resilience in Swedish adolescents—Does resilience moderate the relationship between trauma experience and trauma symptoms? // Psychological Trauma: Theory, Research, Practice, and Policy, 2023, 15(S1), p. 125.
41. Nunnally, J. C. An overview of psychological measurement // Clinical diagnosis of mental disorders: A handbook, - 1978. (B. B. Wolman (ed.)), - p. 97–146.
42. Olweus, D. Stability of aggressive reaction patterns in males: A review // Psychological Bulletin, - 1979. 86, - p. 852–875.
43. Olweus, D. Bully/victim problems among schoolchildren: Basic facts and effects of a school-based intervention program // The development and treatment of childhood aggression, - 1991. (D. J. Pepler & K. H. Rubin (eds.)), - p. 411–448.
44. Ong, S.H., Tan, Y.R., Khong, J.Z. Psychosocial difficulties and help-seeking behaviors in Singapore adolescents involved in cyberbullying // Cyberpsychology, Behavior, and Social Networking, - 2021. 24, №11, p. 737–744.
45. Palacios, D., Berger, C., Luengo Kanacri, B. P., Veenstra, R., & Dijkstra, J. K. The interplay of adolescents’ aggression and victimization with friendship and antipathy networks within an educational prosocial intervention // Journal of youth and adolescence, 2019, 48, p. 2005-2022.
46. Patterson, L. J., Allan, A., Cross, D. Adolescent perceptions of bystanders’ responses to cyberbullying // New Media & Society, - 2017. 19(3), p. 366–38.

47. Peng, K., Zhu, X., Gillespie, A., Wang, Y., Gao, Y., Xin, Y., Chen, R. Self-reported rates of abuse, neglect, and bullying experienced by transgender and gender-nonbinary adolescents in China // JAMA network open, 2019, p. 2(9)
48. Pronk, J., Olthof, T., Aleva, E. A., van der Meulen, M., Vermande, M. M., & Goossens, F. A. Longitudinal associations between adolescents' bullying-related indirect defending, outsider behavior, and peer-group status // Journal of research on adolescence, 2020, 30, p. 87-99.
49. Poling, D.V., Smith, S.W., Taylor, G.G. Direct verbal aggression in school settings: A review of the literature // Aggression and Violent Behavior, - 2019. 46, p. 127–139.
50. Reijntjes, A., Kamphuis, J. H., Prinzie, P., Telch, M. J. Peer victimization and internalizing problems in children: A meta-analysis of longitudinal studies // Child abuse & neglect, 2010, 34(4), p. 244-252.
51. Rigby K. Bullying in schools and what to do about It. Camberwell, VIC, Australia // Australian Council for Educational Research. 2007
52. Sarmiento, A., Herrera-López, M., Zuch, I. Is cyberbullying a group process? Online and offline bystanders of cyberbullying act as defenders, reinforcers and outsiders // Computers in Human Behavior, - 2019. 99, - p. 328–334.
53. Schneider, S.K., O’Donnell, L., Stueve, A. Cyberbullying, school bullying, and psychological distress: A regional census of high school students // American Journal of Public Health, - 2012. 102, №1, p. 171–177.
54. Shaw, R.J., Currie, D.B., Smith, G.S. Do social support and eating family meals together play a role in promoting resilience to bullying and cyberbullying in Scottish school children? // SSM - Population Health, - 2019. 9, Article 100485.
55. Shujja, S., Atta, M. Translation and validation of Illinois Bullying Scale for Pakistani children and adolescents // Pakistan Journal of Social and Clinical Psychology, - 2011. 9, p. 79.
56. Sourander, A., Klomek, A.B., Ikonen, M. Psychosocial risk factors associated with cyberbullying among adolescents: A population-based study // Archives of General Psychiatry, - 2010. 67, №7, p. 720–728.
57. Tennant, R., Hiller, L., Fishwick, R. The Warwick-Edinburgh mental well-being scale (WEMWBS): Development and UK validation // Health and Quality of Life Outcomes, - 2007. 5, №1, p. 1–13.
58. Thomas, H. J., Chan, G. C., Scott, J. G., Connor, J. P., Kelly, A. B., Williams, J. Association of different forms of bullying victimisation

with adolescents’ psychological distress and reduced emotional wellbeing // Australian & New Zealand journal of psychiatry, 2016, 50(4), p. 371-379.
59. Tsang, K. L. V., Wong, P. Y., Lo, S. K. Assessing psychosocial well-being of adolescents: A systematic review of measuring instruments // Child: Care, Health and Development, - 2012. 38(5), p. 629–646.
60. Ttofi, M. M., Bowes, L., Farrington, D. P., Lösel, F. Protective factors interrupting the continuity from school bullying to later internalizing and externalizing problems: A systematic review of prospective longitudinal studies // Journal of School Violence, 2014, 13(1), p. 5-38.
61. Walsh, S. D., De Clercq, B., Molcho, M., Harel-Fisch, Y., Davison, C. M., Rich Madsen, K., Stevens, G. W. The relationship between immigrant school composition, classmate support and involvement in physical fighting and bullying among adolescent immigrants and non-immigrants in 11 countries // Journal of youth and adolescence, 2016, 45, p. 1-16.
62. Waters, L., Loton, D. A meta-framework and review of the field of positive education // International Journal of Applied Positive Psychology, 2019, 4(1–2), p. 1–46.
63. WHO. Adolescent mental health, World Health Organiztion. 2019
64. Wolke, D., Copeland, W. E., Angold, A., Costello, E. J. Impact of bullying in childhood on adult health, crime, and social outcomes // Psychological Science, - 2013. 24, - s. 1958–1970.
65. Zhu, C., Huang, S., Evans, R. Cyberbullying among adolescents and children: A comprehensive review of the global situation, risk factors, and preventive measures // Frontiers in Public Health, - 2021. 9, Article 634909.